İqtisadi Təşəbbüslərə Yardım
Support For Economic Initiatives




# TEXNOPARKLAR

## Kiçik sahibkarlar üçün bələdçi

BAKI
2015
İQTİSADİ TƏŞƏBBÜSLƏRƏ YARDIM İB

# TEXNOPARKLAR

Kiçik sahibkarlar üçün bələdçi

Bakı - 2015

**Texnoparklar: kiçik sahibkarlar üçün bələdçi.**
Bakı 2015, 48 səh

**Müəllif: Arif Nəcimov**

**Redaktor: Azər Mehtiyev**

*Bu nəşr Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (USAID) vasitəsilə "Azərbaycanda Kiçik Sahibkarlığın İnkişafına Dəstək" layihəsi çərçivəsində İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi tərəfindən hazırlanmışdır.*
*Müəllifin bu nəşrdə ifadə etdiyi fikirlər USAID və ya Amerika Birləşmiş Ştatları hökümətinin mövqeyini əks etdirməyə bilər.*

**ISBN 978-995281-319-7**

**© İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi**

**Mündəricat**

**Ön söz ..........................................................................4**

**Giriş ..........................................................................5**

**1. Texnoparkın mahiyəti ..........................................................7**

**2. Texnoparkların tarixi və xarici ölkələrin təcrübəsi ..10**

**3. Sənaye parkları və növləri ..........................................15**

**4. Sənaye məhəllələri və onun əhəmiyyəti ......................20**

**5. Sənaye klasterləri..........................................................22**

**6. Texnoparkın sahibkara verdiyi imkanlar ..................30**

**7. Azərbaycanda texnoparkların inkişaf perespektivi və cari vəziyyəti ..................................36**

**8. Texnoparkda fəaliyyət göstərmək üçün sahibkar nə etməlidir? ..........................................................38**

**9. Faydalı linklər ..........................................................39**

**10. Əlavələr (ərizə formaları, sənədlər və s.) ..................40**

## Ön söz

Bu bələdçi Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyin (USAID) maliyyə dəstəyi ilə icra olunan "Azərbaycanda Kiçik Sahibkarlığın İnkişafına Dəstək" layihəsi çərçivəsində hazırlanmışdır. Layihənin məqsədi Azərbaycanda kiçik sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasıdır. Bu məqsədlə layihə çərçivəsində kiçik sahibkarlığın vəziyyəti və problemləri araşdırılır, qanunvericiliyin təkmilləşdirilməsinə, dövlət idarəetmə institutlarının gücləndirilməsinə dair təkliflər hazırlanır, konkret kiçik sahibkarlıq sahələrindəki maneə və çətinliklər təhlil edilir, qadın-ailə biznesinin inkişafına dair tədqiqatlar aparılır və tövsiyələr hazırlanır. Layihənin icraçı təşkilatlarına Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (aparıcı təşkilat), İqtisadi Tədqiqatlar Mərkəzi, İqtisadi Təşəbbüslərə Yardım Mərkəzi, Kiçik və Orta Müəssisələrin İnkişafına Yardım Mərkəzi, Gələcəyə Körpü Gəncə Gənclər İctimai Birliyi və Quba Xalça Dünyası Assosiyasiyası daxildir.

Hazırlanmış bələdçi kiçik sahibkarlar üçün çox mühüm əhəmiyyətə malik olan texnoparklardan bəhs edir. Kitabçada texnoparkın mənası, texnoparkın yaranması və xarici ölkələrin təcrübəsi, texnoparkın sahibkara verdiyi imkanlar, Azərbaycanda texnoparkların inkişaf perespektivi və cari vəziyyəti, Azərbaycanda texnoparkların sahibkarlara verdiyi üstünlüklər, texnoparkda fəaliyyət göstərmək üçün sahibkar nə etməli olduğunu və texnoparklar barədə faydalı linklər, nümunəvi sənədlər, qanunvericilik haqqında məlumat verilir.

Bələdçini çapa hazırlayan ekspert qrupu ümid edir ki, oxucular kitabçadan razı qalacaqlar.

## Giriş

Son on ildə Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sahibkarlıq və sənayenin inkişafında böyük uğurlar qazanılmışdır. Bu müddət ərzində rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilmiş, sahibkarlar tərəfindən yeni iş yerləri açılmış, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Hazırkı mərhələdə müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınmaqla sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi məqsədi ilə bir sıra tədbirlərin həyata keçirilməsi, o cümlədən mövcud təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal sahələrinin, sənaye parklarının - texnoparkların yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi, sənayenin innovasiyalar əsasında inkişafını təmin edəcək imkanların formalaşdırılmasına start verilmişdir.

Bu gün Uzaq Şərqin zəngin təbii sərvətləri olmayan bir sıra dövlətlərinin, məsələn: Yaponiyanın, Cənubi Koreyanın timsalında əminliklə demək olar ki, elm və təhsil, yüksək ixtisaslı kadr potensialı hər bir dövlətin davamlı sosial-iqtisadi, mədəni-intellektual yüksəlişinin əsas təminatı qismində çıxış edir. İntellektual potensial əhəmiyyətinə və gətirdiyi dividendlərə görə indi hətta zəngin təbii sərvətləri də üstələyir. Müasir dünyada rəqabətə tab gətirmək üçün ilk növbədə təhsilə, zəngin biliklərə, informasiya texnologiyalarına, innovasiya iqtisadiyyatına arxalanmaq lazımdır. Bunlarla yanaşı onu da qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı şəraitində innovasiya yönümlü elmi laboratoriyaların və kiçik müəssisələrin (sahibkarların) formalaşması və inkişaf etməsi üçün texnoloji zonaların təşkili çox vacibdir. İstənilən xarici ölkələrin statistikası göstərir ki, bu məzmunlu müəssisələr təklikdə fəaliyyət göstərməyə cəhd edərsə, on belə müəssisədən biri və ya ikisi bazarda rəqabətə davam gətirə bilir, qalanları isə

müflisləşib sıradan çıxır. Ona görə də, texnopark elmi nəticələrin kommersiyalaşdırılması ilə əlaqədar təşkilati məsələləri öz üzərinə götürərək belə müəssisələrin bazarda rəqabətə davamlılığını və məqsədyönlü inkişafını təmin etməkdə böyük rol oynayır.

Təsadüfi deyil ki, Azərbaycan Prezidentinin 4 may 2009-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"da bu məqsədlə, yəni ölkəmizdə biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılması üçün elmi-texniki infrastrukturun modernləşdirilməsi, elmin, təhsilin və istehsalatın inteqrasiyasının təmin edilməsi, innovasiya siyasətinin səmərəsinin artırılması mühüm fəaliyyət istiqamətləri hesab olunmuş, innovasiya fəaliyyəti infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən texnoparkların, texnoloji mərkəzlərin, biznes inkubatorlarının şəbəkəsinin genişləndirilməsi bir vəzifə olaraq qarşıya qoyulmuşdur[1].

Bunlarla yanaşı onu da qeyd etmək yerinə düşərdi ki, ölkəmizdə texnoparklar yeni anlayış olduğundan bu barədə bir çox sahibkarların məlumatı yoxdur və ya çox az məlumatlıdırlar. Buna misal olaraq 15.01.2015-ci il tarixində Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlar Milli Konfederasiyasının (ASK) konfrans zalında Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu tərəfindən sahibkarlarla görüş zamanı təşkil olunmuş "Sahibkarlığın inkişafında Texnoparkların rolu (problemlər və perespektiv imkanlar)" adlı təqdimatdan sonra məlum olmuşdur ki, xüsusilə kiçik sahibkarlar texnopark haqqında məlumatsızdırlar.

Yuxarıda sadalananları ümumiləşdirərək bildirmək istərdik ki, İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyinin sifarişi ilə aparılan araşdırmaların nəticələri əsasında texnoparklar barədə maarifləndirici vasitə kimi bu kitabça tərtib olunmuşdur.

Müəllif hesab edir ki, bu nəşr kiçik sahibkarlara, həmçinin texnoparklar barəsində məlumat almaq istəyənlərə bir bələdçi kimi faydalı olacaqdır.

[1]Azərbaycan Prezidentinin 4 may 2009-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"

## 1. Texnoparkın mahiyəti

**Texnoparklar** bir və ya bir neçə universitet, həmçinin elmi-tədqiqat mərkəzləri ilə birbaşa və ya ortaq fəaliyyətləri ilə əlaqədər olub, tərkibində elmi nəticələrə və yüksək texnologiyalara əsaslanan şirkətlərin qurulması və inkişafına təşəbbüs göstərmək üçün qurulmuş kompleksdir.

Texnoparkda fəaliyyət göstərən müəssisələrə, universitet innovativ elmi nəticələrinin transfer edilməsi və işin idarə olunması sahələrində dəstək verir. Bu proseslərdə bütün yanaşmalar təşəbbüskarlıq və müəllif hüquqlarının qorunması müstəvisində həyata keçirilir. Belə desək, texnoparklar yeni ideyaların formalaşmasından başlayaraq, onun tətbiq olunması və inkişaf etdirilməsi üçün hərtərəfli şəraitin olduğu (müəssisələrlə ortaq fəaliyyətlər və s.) innovativ fəaliyyərləri təmin edən məkandır[2].

**Texnoparkların yaradılmasında əsas məqsəd** biliklərin və ixtiraların texnologiyalara, həmin texnologiyaların isə kommersiya məhsuluna çevrilməsi, tədqiqatlara yönəldilmiş milli xərclərin səmərəliliyinin yüksəldilməsi, kiçik elmtutumlu sahibkarlıq sektoru vasitəsi ilə texnologiyaların sənayeyə ötürülməsi, elmtutumlu müəssisələrin formalaşması və onların bazarda təşəkkülü, elmtutumlu biznes sahəsində müəssisələrin dəstəklənməsi, sənayenin struktur yenidənqurulması, regional qeyri-mütənasib inkişaf səviyyəsinin azalması, məşğulluq probleminin qismən həlli, yüksək texnologiyalar sahəsində elmi-texniki nailiyyətlərin sürətli tətbiqidir. Bu qurumlar eyni zamanda yüksək texnologiyalara əsaslanaraq inkişaf etdirilən sənaye sahələrinin gücləndirilməsi, yeni bölgələrdə sənayenin inkişafının dəstəklənməsi, innovativ fəaliyyətlərin həyata keçirilməsi, təhsil və daha təsirli elmi-texniki nəticələrə malik fəaliyyət sahələri ilə səmərə-

[2]Mənbə: internet materialları və aparılmış tədqiqatlar

liliyin artırılması, beynəlxalq arenada rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədlərini də güdür.

Deyilənləri ümumiləşdirsək deyə bilərik ki, texnoparklar kiçik və orta elmtutumlu innovasiya şirkətlərinin inkişafı üçün maksimum əlverişli mühitin formalaşdığı elm-istehsalat kompleksidir və əsasən elmi fəaliyyətin nəticələrinin məhsula çevrilməsi və bazara çıxarılmasının təşkili ilə məşğul olurlar.

**Texnoparkların əsas struktur vahidi** mərkəzlər hesab olunur. Buraya innovasiya-texnoloji mərkəz, tədris mərkəzi, məsləhət mərkəzi, informasiya mərkəzi, marketinq mərkəzi, sənaye mərkəzi, maliyyə-sığorta mərkəzi, mühasibat-audit mərkəzi, strateji tədqiqat mərkəzi daxildir.

Dünya iqtisadiyyatında texnoparklar innovasiyalı iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi hesab edilir. Milli iqtisadiyyatın yeni sahələrinin formalaşmasında və rəqabətqabiliyyətli olmasında texnoparkların böyük rolu vardır. Məsələn, ABŞ, Hindistan, Çin və s. kimi ölkələr İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) sahəsində dünya səviyyəsində qabaqcıl olmalarına görə məhz texnoparklara minnətdardırlar.

Müasir dövrdə informasiya cəmiyyətinin biliklərə əsaslanan iqtisadiyyatın qurulmasında texnoloji biliklərin mərkəzinə çevrilən universitetlər mühüm rol oynadığından ali məktəb texnopark vəhdətinin yaradılması da son illər geniş inkişaf tapmışdır. Belə texnoparklar bir və ya bir neçə universitet, həmçinin elmi-tədqiqat mərkəzləri ilə birbaşa və ya ortaq fəaliyyətləri ilə əlaqədar olub, tərkibində elmi nəticələrə və yüksək texnologiyalara əsaslanan müəssisələrin yaranmasına və onların inkişafına təşəbbüs göstərmək məqsədi ilə qurulur. Universitet texnoparkda fəaliyyət göstərən müəssisələrə innovativ elmi nəticələrin transfer edilməsi və işin idarə olunması sahələrində dəstək verir. Bu proseslərdə bütün yanaşmalar təşəbbüskarlıq və müəllif hüquqlarının qorunması müstəvisində həyata keçirilir.

Beləliklə, texnoparklar yeni ideyaların formalaşmasından başlayaraq onların tətbiq olunması və inkişaf etdirilməsinədək hərtərəfli şəraitin olduğu innovativ fəaliyyətləri təmin edən məkandır. Başqa sözlə, texnoparklar insan kapitalını sürətlə inkişaf etdirən, yüksək texnologiyalar istehsal edən qurumlardır. Belə qurumlar universitetlərin tərkibində olduqda daha aktiv fəaliyyət göstərə bilirlər.

Dünya standartlarına əsasən texnoparkların əsas hədəfləri universitetlərin təhsil, tədris və araşdırma fəaliyyətlərini dəstəkləyərək daha səmərəli nəticələr əldə etmək, sənayenin rəqabət gücünü artırmaq, yüksək texnologiyalara əsaslanan regional və iqtisadi inkişafı sürətləndirməkdir.

## 2. Texnoparkların tarixi və xarici ölkələrin təcrübəsi

Texnoparklar ilk dəfə XX əsrin 50-ci illərində ABŞ-da Stenford Universitetinin təşəbbüsü ilə yaradılmışdır. Həmin dövrdə universitetin yerləşdiyi Kaliforniya ştatında ABŞ hökumətinin sifarişi ilə hərbi sənaye məhsulları istehsal edən şirkətlər yüksək texnologiyalar sahəsində də müəyyən irəliləyişlər əldə etmişdilər. Ona görə də Stenford Universiteti bu şirkətlərə özünün boş qalmış ərazisində icarə yer vermək qərarına gəlir. Belə ki, boş qalmış həmin ərazilərin satılması Lilend Stenfordun vəsiyyəti ilə qadağan olunmuşdu. Bundan başqa, həmin şirkətlər bu və ya digər formada universitetlə əlaqəli şəkildə fəaliyyət göstərirdilər. Həmin ərazidə tikintinin başa çatması, infrastrukturun formalaşması və elmi parkın yaradılması üçün təxminən 30 il vaxt lazım gəlir. Silikon vadisi bu gün çox məşhur olan "Hewlett-Packard", "Polaroid", "Eastman Kodak", "General Electric", "Shojkley Transistor", "Lockheed" kimi şirkətlərin ilkin özünütəsdiq meydanı olub.



**Şəkil 1.** Stenford Universitetinin görüntüsü

Buna baxmayaraq ilk illərdə Birləşmiş Ştatlarda texnoparkların yaradılması sahəsi çox ləng inkişaf edirdi. Ötən əsrin 70-ci illərində Silikon vadisinin yerləşdiyi 280 hektarlıq ərazi böyüməkdə olan şirkətlərin tələblərinə cavab vermirdi. Belə olan halda vadinin ərazisi genişləndirilərək San-Xosedən San-Fransiskoya qədər uzadıldı.




**Şəkil 2.** Stenford Universiteti texnoparkının maket görüntüsü

Həmin illərdə kompüter texnikasının sürətli inkişafı, 80-ci illərdə şəbəkə texnologiyalarının yaradılması və 90-cı illərdə İnternetin meydana gəlməsi Silikon vadisini sənaye parkı kimi daha da inkişaf etdirdi. Yeri gəlmişkən Silikon vadisinin bəzi göstəricilərini diqqətə çatdırmaq istərdik:

- hazırda vadidə 2,5 milyon nəfər insan yaşayır və fəaliyyət göstərir. Onların 34 faizi əcnəbidir;
- vadidə yaşayan hər bir əməkdaş öz şirkətinə ümumilikdə il ərzində 200 min ABŞ dolları qazandırır;
- vadidə yaşayanların yalnız 43 faizi ali təhsillidir;
- burada əməkdaşların orta illik əməkhaqqısı 70-80 min ABŞ dollarıdır.




**Şəkil 3.** Stenford Universitetinin texnoparkının rezidentlər üçün təşkil olunmuş tədbirdən görüntü

Hazırda Amerikada 700-dən artıq texnopark, 150-dən çox İnformasiya Texnologiyaları - Parkı fəaliyyət göstərir[3].

Amerika texnoparkı baza universitetləri əsasında yaranmışdır. Bu park kompleks binadan ibarət olmaqla həm işləmək imkanını, həm də yaşayış şəhərciyi, servis xidmətləri, istirahət və idmanla məşğulluq üçün zonanı özündə birləşdirir. Əsas prinsip - hər şeyin bir yerdə olmasıdır və burada işləyən şəxs heç bir yerə getməməlidir. Əməkdaşlar elə əhvali-ruhiyyəyə köklənməlidirlər ki, günün 24 saatını sanki işləyirlər. Ona görə də onlar bir yerdə yaşamalı və işləməli, burada istirahət etməli, ailə-uşaq problemləri ilə məşğul olmalıdırlar. Yalnız bu halda gözlənilən nəticəni əldə etmək mümkün olur.

ABŞ-dan sonra dünyanın inkişaf etmiş bütün ölkələrində texnoparklar yaradılmış və inkişaf etdirilmişdir. Hazırda dünyada 4000-ə yaxın texnopark fəaliyyət göstərir. Texnoparkları inkişaf etdirmiş ölkələr yüksək texnologiyalara sürətlə yiyələnə bilirlər. Ona görə də dünyanın ən qabaqcıl sənaye markaları həmin ölkələrin adı ilə birbaşa bağlıdır.

[3]Mənbə: İnternet resursları və Stenford Universitetinin saytından əldə edilmişdir.

Onu da qeyd edək ki, texnoparklar innovasiya infrastrukturunun elementləri kimi dünyanın müxtəlif ölkələrində müxtəlif cür adlanır.

Adlardakı bu fərq bəzi funksional, təşkilati və milli xüsusiyyətlərlə izah olunur. Mahiyyətcə texnoparklar konsepsiyasının əsasını elmi-texniki nailiyyətlərin akademik və digər tədqiqat mərkəzlərindən sənayedə ötürülməsi prosesinin səmərəliliyinin yüksəlməsini və onun mənimsənilməsini sürətləndirmək məqsədi ilə elmi tədqiqatların və zəruri kapitalın ərazi cəhətdən birləşməsi ideyası təşkil edir. Məsələn, Şərq ölkələrində, Rusiyada, eləcə də Azərbaycanda "texnoloji parklar" (texnoparklar) və ya "elmi-texnoloji parklar"; "azad iqtisadi zonalar" birləşmələri qəbul olunduğu halda ABŞ-da bu strukturları "tədqiqat parkları", Böyük Britaniyada "elmi parklar", Koreyada "elmi-sənaye parkları", Fransada və Yaponiyada "texnopolislər", Almaniyada "innovasiya və texnoloji mərkəzlər", Türkiyədə "texnokent" və s. adlandırırlar.

Dünya təcrübəsinə görə texnoparkların inkişafında səmərəli nəticələrin təmin edilməsi üçün yüksək texnologiyaların inkişafında elmi tədqiqatların  innovativ yanaşmalarla həyata keçirilməsi mühüm rol oynayır.

Belə ki, bir çox ölkələrin təcrübəsini araşdırdıqda görmək olar ki, dövlət həm sahibkarlara, həm də texnoparklarda fəaliyyət göstərən şirkətlərə müəyyən güzəştlər tətbiq edir. Məsələn, Moskvada fəaliyyət göstərən texnopark ve senaye parkların rezidentleri ucun 10 ile qeder əmlak və gəlir vergisi güzəşti tətbiq olunur, Polşada 5 illik gəlir və əmlak vergisi, Azərbaycanda isə sənaye parklarına 7 ilə qədər güzəştlər tətbiq olunur (bu barədə daha ətraflı növbəti bölmələrdə qeyd olunub).

Onu da əlavə etmək istərdik ki, Azərbaycan ali təhsil müəssisələri arasında texnoparkların yaradılması ideyası son illər meydana gəlmişdir. Lakin bu ideya hələlik iki ali məktəbdə - Qafqaz Uni-

versitetində[4] və Xəzər Universitetində[5] reallaşmış, digər universitetlərdə isə reallaşmaq və ya hazırlıq mərhələsindədir.

Texnoparklarda fəaliyyətlərin əsas başlanğıc və ya yeni iş fikirlərinin formalaşdırılaraq inkişaf etdirilməsində texnoparkın tərkibində fəaliyyət göstərən inkubasiya mərkəzləri mühüm rol oynayır. İnkubasiya mərkəzlərində fəaliyyətlər innovativ fikirlər əsasında formalaşdırılır və inkişaf etdirilir. İnkubasiya mərkəzində yeni iş fikirlərinin yeni işlərə çevrilməsi üçün əlverişli mühit formalaşdırlır.

Texnoparklarda fəaliyyətlər İnkubasiya Mərkəzlərindən başlayır ki, burada da əsas məqsəd gənc nəsildə olan yenilikçi potensialı üzrə çıxararaq onu inkişaf etdirməkdir. Belə nümunəvi inkubasiya mərkəzlərinə misal olaraq Qafqaz Universitetinin nəzdində qurulmuş İnkubasiya mərkəzi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin (ADİU) İnnovativ Biznes-İnkubatorunu[6] qeyd etmək istərdim. Bunlarla yanaşı Azərbaycan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin (RİTN) Yüksək Texnologiyalar Parkının Biznes İnkubasiya Mərkəzini də qeyd etmək lazımdır. Bu mərkəzin məqsədi perspektivli layihələrin və xırda və yeni şirkətlərin elmi-texniki tədqiqatlarının vençur maliyyələşməsini dəstəkləməklə ölkəmizdə "Startap"çıların inkişafına kömək etməkdir[7].

Yüksək Texnologiyalar Parkının Biznes İnkubasiya Mərkəzindən faydalanmaq üçün **www.picampus.az** internet səhifəsində istifadə etməklə mümkündür.

Araşdırmalar göstərir ki, ölkəmizdə həm texnoparklar, həm də sahibkarların bizneslərini dəstəkləyən müxtəlif mərkəzlər və təşkilatlar mövcuddur və günü-gündən də artmaqda davam edir.

[4]http://qutechnopark.az/az/pages/Haqqimizda-9.html
[5]Xəzər Universitəsi Texnoparkı: http://www.khazar.org/s228/contacts/az
[6]ADİU İnnovativ Biznes-İnkubatoru: http://ibi.az/
[7]http://az.trend.az/business/it/2243881.html

## 3. Sənaye parkları və növləri

Müasir istehsal infrastrukturuna malik sənaye parkının yaradılması ölkədə sənaye sahələrinin inkişafının, ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin edilməsini, habelə istehsal sahələrinin və onun innovasiya istiqamətinin inkişafını nəzərdə tutan dövlət siyasətinin reallaşdırılmasına yönəldilmişdir. Sənaye parklarının yaradılması, həmçinin ölkənin qeyri-neft sektorunun davamlı inkişafı, ölkə iqtisadiyyatının ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən məhsulların istehsalının artırılması, ətraf rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi öncül vəzifələrin yerinə yetirilməsi baxımından xüsusilə əhəmiyyətlidir. Bu istiqamətdə işlər davam etdirilmiş, beynəlxalq təcrübə daim öyrənilmiş və müvafiq normativ-hüquqi sənədlərin layihələri hazırlanmışdır.

Ölkədə sənaye parkının (şəhərciyinin) yaradılması ilk dəfə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" 2002-ci il 10 sentyabr tarixli Fərmanında müəyyən edilmişdir. Bundan başqa, sənaye parkının (şəhərciyin) yaradılması Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nda Abşeron iqtisadi rayonu üzrə həyata keçiriləcək tədbirlərə də daxil edilmişdir[8].

Sənaye parkının yaradılması həmçinin, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda və Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli

[8]http://www.president.az/documents/decrees/

Sərəncamı[9] ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nda nəzərdə tutulmuşdur.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 4 may tarixli, 1490 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində həyata keçiriləcək Tədbirlər Planının 2.8.45-ci bəndində Balaxanı sənaye parkının[10] yaradılması nəzərdə tutulmuşdur.

Yuxarıda qeyd edilən mühüm sənədlərdə verilmiş tapşırıqların icrası ilə bağlı, xarici ölkələrin bu sahədəki müsbət təcrübəsinin ölkəmizdə tətbiqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Belə ki, İqtisadiyyat və Sənaye Nazirliyinin mütəxəssisləri digər aidiyyəti qurumların nümayəndələri ilə birlikdə bir sıra ölkələrdə, o cümlədən Türkiyə, Almaniya, Polşa, Latviya, Gürcüstan, Rusiya Federasiyasının Tatarıstan Respublikasında, Çin və Cənubi Koreyada olmuş, bu sahədə həmin ölkələrin təcrübəsi ilə yaxından tanış olmuş, BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNİDO)[11] , Türkiyənin Türk Əməkdaşlıq və İnkişaf İdarəsinin (TİKA)[12] ekspertlərinin tövsiyələri nəzərə alınmaqla bu sahədə müvafiq təkliflər hazırlanmışdır.

Ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli 548 nömrəli Fərmanı ilə Sumqayıt Kimya Sənaye

[9] http://www.president.az/documents/orders/
[10] Balaxanı sənaye parkı: http://bsp.az/page.php?id=1
[11] Birləşmiş Millətlərin Sənaye İnkişafı Təşkilatı (UNİDO): http://economy.gov.az/index.php?option=com_content&view=article&id=281&Itemid=165&lang=az
[12]http://www.tika.gov.tr/tr

Parkı[13] yaradılmışdır. Həmin Fərmanın 7.1-ci bəndinə əsasən Sumqayıt Kimya Sənaye Parkının fəaliyyəti üçün Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azərikimya" İstehsalat Birliyinin ərazisindən 167,66 hektar torpaq sahəsinin Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin istifadəsinə verilməsi müəyyən edilmişdir.





**Şəkil 4.** Sumqayıt Kimya Sənaye Parkının təqdimatından

Bununla yanaşı, ölkədə sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli, 1947 nömrəli Sərəncamı ilə Bakı şəhərində Balaxanı Sənaye Parkı yaradılmışdır.





**Şəkil 5.** Balaxanı Sənaye Parkının təqdimatından

[13]Sumqayıt Kimya Sənaye Parkı: http://www.scip.az/

Həmin Sərəncamın 5.1-ci bəndinə əsasən Balaxanı Sənaye Parkının fəaliyyəti üçün Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Balaxanıneft" Neftqazçıxarma İdarəsinin ərazisindən 7 hektar torpaq sahəsinin Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin istifadəsinə verilməsi müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin "Qızıl Üçbucağın" təməlini qoymaq məqsədilə 2012-ci ilin noyabr ayında Fərman imzalamışdır. Qızıl Üçbucaq Yüksək Texnologiyalar Parkı, İKT Fondu və İT Universitetini nəzərdə tutur. Belə ki, hər üç təşkilat 2013-cü ildə yaranmışdır və Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nəznində fəaliyyətə başlamışdır.

Yüksək Texnologiyalar Parkı[14] Azərbaycanın yüksək texnoloji iqtisadi inkişafının təməl layihəsidir. Missiyası qabaqcıl avadanlıqlar, iqtisadi güzəştlər və biznes xidmətlərindən ibarət olan biznes üçün səmərəli mühiti təmin edərək Azərbaycanda və regionda yüksək texnologiyalara əsaslanan iqtisadiyyata töhfə verməkdir.

**Şəkil 6.** Yüksək Texnologiyalar Parkının logosu

Yüksək texnologiyalar sektorunu dəstəkləyən siyasət üzrə tövsiyələr formalaşdırmaqla, regionda yüksək texnoloji biliklərin və fəaliyyətlərin mərkəzinə çevrilmək məqsədilə saysız tədbirlər təşkil etməklə və gələcəyə baxışı bölüşən dünya şöhrətli beynəlxalq

[14]Yüksək Texnologiyalar Parkı: http://hightech.az/about/

təşkilatlarla əməkdaşlıq quraraq ekosistemə yeniliklər gətirən qurum olmaqla öz missiyasına çatmağı qarşıya məqsəd qoymuşdur.

Azərbaycanda yaradılması nəzərdə tutulan sənaye parkları ayrılmış ərazidə müasir tələblərə uyğun istehsal infrastrukturu yaradılaraq, ondan sahibkarların əlverişli şərtlərlə istifadəsinə əsaslanır. Parkların sənaye sahələri üzrə sektorlara bölünməsi nəzərdə tutulur ki, bu sektorlar da ölkə iqtisadiyyatının prioritet sahələrini əhatə etməkdədir. Bunlarla yanaşı qeyd etmək yerinə düşərdi ki, 2014-cü il Azərbaycan Respublikasında "Sənaye ili" elan edilmiş[15], "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"[16] qəbul edilmiş, Mingəçevir Yüksək Texnologiyalar Parkı[17], Mingəçevir Sənaye Parkı[18], Qarabağ Aqrar Sənaye Parkı və s. bu kimi işlər görülmüşdür və görülməkdədir.

[15]http://www.president.az/articles/10793
[16]http://www.president.az/articles/13900
[17]http://www.mincom.gov.az/media/xeberler/details/9235
[18]http://www.president.az/articles/14432

## 4. Sənaye məhələləri və onun əhəmiyyəti

Azərbaycan Respublikasının dövlət siyasəti iqtisadiyyatın hərtərəfli inkişafının təmin edilməsini, o cümlədən yüksək texnologiyalar əsasında sənayenin dinamik inkişafını və şaxələndirilməsini nəzərdə tutur. Uğurla həyata keçirilən bu siyasətin nəticəsi olaraq son illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində müxtəlif təyinatlı yüzlərlə sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, minlərlə yeni iş yeri yaradılmışdır. Ölkədə rəqabətədavamlı sənaye məhsulları istehsalını daha da artırmaq məqsədi ilə hazırda sənaye parklarının yaradılması istiqamətində iş aparılır.

Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsində və yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişaf etdirilməsində bir istiqamət də ölkənin ayrı-ayrı şəhərlərində sənaye məhəllələrinin[19] yaradılmasıdır.

Sənaye məhəllələri istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, kooperasiya əlaqələrinin gücləndirilməsi, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və sair məsələlərin həlli baxımından böyük əhəmiyyət kəsb edir.

**Sənaye məhəlləsi** - sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik olan kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə edilən ərazidir.

Ölkənin müxtəlif bölgələrində sənaye məhəllələrinin yaradılması Azərbaycan Respublikasında iqtisadiyyatın sənaye sahələrinin inkişafı və əhalinin sənaye məşğulluğunun təmin edilməsinə öz töhfəsini verəcəkdir.



[19]Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı: http://president.az/articles/13058

2014-cü ilin oktyabr ayından etibarən ölkədə sənaye məhəllələrinin fəaliyyətinin təşkili və tənzimlənməsi Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nə[20] həvalə edilmişdir. Bu istiqamətdə Şirkətin başlıca fəaliyyəti sənaye məhəllələrində sənaye istehsalının və müvafiq xidmət sahələrinin təşkili üçün zəruri infrastrukturu və biznes şəraitini yaratmaq, sənaye məhəllələrinin sənayeləşmə siyasətinin icrasında əsas vasitələrdən birinə çevirməkdir.

Ölkəmizdə ilk sənaye məhəlləsinin yaradılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-ci ilin fevralın 2-də Neftçala Sənaye Məhəlləsinin yaradılması haqqında sərəncam[21] imzalamışdır. Sərəncama uyğun olaraq, Neftçala Sənaye Məhəlləsinin fəaliyyətinin təşkilini və tənzimlənməsini "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti həyata keçirəcək.

[20]"Azərbaycan İnvestisiya Şirkəti" ASC: http://www.aic.az/az/
[21] Neftçala Sənaye Məhəlləsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: http://president.az/articles/14174

## 5. Sənaye klasterləri

Klaster modeli XX əsrin 60-70-ci illərindən başlayaraq tətbiq edilən bir mexanizmdir və tətbiq edildiyi ölkələrin əksəriyyətində iqtisadi cəhətdən çox əhəmiyyətli mövqeyə malikdir.

**Klasterlər** - eyni və ya bənzər sektorda fəaliyyət göstərən, əlaqəli və bir-birini tamamlayıcı fəaliyyət sahələrinin müəyyən coğrafi bölgədə yerləşməsi ilə meydana gələn, ümumi infrastruktur, texnologiya, vahid bazar, işçi qüvvəsi və xidmətləri paylaşaraq qarşılıqlı ticarət əlaqələrinin qurulması, kommunikasiya və qarşılıqlı dialoq imkanlarına malik olan sahibkarlıq subyektlərindən ibarət sistemlərdir[22].

Eyni zamanda, klasterlərdə kiçik və orta sahibkarlıq subyektləri arasında həm rəqabət, həm də əməkdaşlığın eyni anda təmin edilməsi nəzərdə tutulur. Klaster daxilində bənzər sahədə fəaliyyət göstərən sahibkarlar həm rəqabət edir, həm də eyni klasterdə birlikdə hərəkət edirlər. Burada sahibkarlıq subyektləri və digər iştirakçılar rəqabət üstünlüyü əldə edilməsi üçün müştərək hərəkət edirlər. Belə bir sistem çərçivəsində fəaliyyət göstərmələri kiçik və orta sahibkarlara rəqabət üstünlüyü qazandırır. Nəticə olaraq bu sistemin tətbiqi ilə sahibkarlıq subyektlərinin xərcləri aşağı düşür, marketinq imkanları genişlənir, məhsuldarlıq göstəriciləri yüksəlir, ixracları artır, araşdırma və inkişaf etdirmə qabiliyyətləri güclənir. Bu isə yeni məhsulların bazara çıxarılmasına, yeni şirkətlərin qurulmasına, məşğulluğun yüksəlməsinə, regionların inkişafına və infrastruktur xidmətlərinin təkmilləşməsinə səbəb olur.

Klasterlər regionda mal və xidmətlərin ixracı vasitəsilə əhalinin maddi rifahının artmasına xidmət edən və bir biri ilə əlaqəli olan sənaye sahələrinin qrup şəklində yerləşməsidir. Klasterlərin tədarük zəncirinin bütün həlqəsini əhatə etməsi və dəstək xidmətləri, həmçinin xüsusi infrastruktur təminatını özündə birləşdirməsi onları

[22]Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin Sənaye şöbəsinin Sənaye parkları və klasterləri sektorunun materialları əsasında hazırlanıb

ənənəvi istehsal sahələrindən fərqləndirir. Coğrafi olaraq mal və xidmətlərin axınının yüksək olduğu ərazilərdə cəmlənən klasterlər ölkə iqtisadiyyatı üçün əlavə dəyər yaradırlar.

Klasterlər öz aralarında müəyyən oxşarlıqlar, əlaqələr və ya müxtəlif ticarət və istehsal əlaqələri olan şirkət və müəssisələrin eyni coğrafi ərazidə fəaliyyət göstərməsi ilə formalaşırlar. Burada ən vacib məsələ onların bir-birlərini tamamlamaları və öz aralarında rəqabət şəraitində olmalarıdır. Klasterləri ancaq öz daxilində yer alan şirkətlərlə məhdudlaşdırmaq düzgün deyildir. Klasterlərin əmələ gətirdikləri iqtisadi dəyərin yaranmasında köməyi olan digər sektorlar, müəssisələr, qurumlar və institutlar da klaster məfhumuna daxildirlər. Məsələn, məişət əşyaları istehsalı ilə məşğul olan klaster yalnız məişət əşyası istehsalı ilə məşğul olan müəssisələri deyil, eyni zamanda tədarükçüləri, köməkçi sənaye sahələrində fəaliyyət göstərən müəssisələri, avadanlıq istehsalçılarını və lazımı infrastrukturu təmin edən digər qurumları da əhatə edir. Klasterlər müştəriləri, pərakəndə satış vasitələrini və bir-birini tamamlayan malların istehsalçılarını da əhatə edən geniş bir termindir. Buna görə də, təşkilat kimi kənardan müdaxilə ilə yaradılan qurumlardan daha fərqli bir xüsusiyyətə malik olan klasterlər xarici müdaxilə olmadan eyni regionda fəaliyyət göstərən, rəqabət qabiliyyətinə malik olan, xarici bazara qarşı daha möhkəm və dayanıqlı vəziyyətə gətirilən müəssisələrdən ibarət sistemlərdir.

Dövlət tərəfindən müəyyən stimullarla təmin olunan müəssisələrin müəyyən bir coğrafi regionda qısa bir müddət ərzində əhəmiyyətli dərəcədə mənfəət əldə etməsi uzun müddətli perspektivdə həmin müəssisələrin daha çox inkişafa ehtiyac hiss etmələrinə və rəqiblərinin fəaliyyət göstərdikləri regionlara genişlənmələrinə gətirib çıxarır. Bunun əsas səbəbi klasterlərin olduğu regionlarda müvafiq sahələrdə ixtisaslaşmış və peşəkarlaşmış tədarükçülərlə, keyfiyyətli işçi qüvvəsi ilə, texniki bilik və dəstəyi təmin edəcək qurumlarla əlaqələrin qurulmasının asan olması və bunun da məhsuldarlığı artırmasıdır. Rəqib

müəssisələrin eyni mühitdə fəaliyyət göstərməsi, müştərilərin həmin regionda öz ehtiyaclarına görə ən sərfəli müəssisəni seçmələrini asanlaşdırır. Belə bir vəziyyətdə müəssisələr arasındakı rəqabət artır və yeni innovasiyaların tətbiqi sürətlənir. Bununla da müəssisələr həm yerli, həm də qlobal bazarda rəqabət qabiliyyəti əldə edirlər.

Növlərinə görə klasterləri şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

- Coğrafi klasterlər – biznes şəbəkəsi, istehsalçılar, təchizatçılar və digər əlaqədar qurumların eyni regionda fəaliyyəti nəticəsində yaranan klasterlərdir.
- Sektoral klasterlər – eyni sektorda fəaliyyət göstərən biznes şəbəkəsi tərəfindən yaradılan klasterlərdir.
- Horizontal klasterlər – maddi və insan resurslarının birgə istifadəsi və paylaşılması, həmçinin istehsal olunan məhsulların birgə satışının təşkili nəticəsində yaranan klasterlərdir.
- Vertikal klasterlər – məhsulların istehsalından başlayaraq son istehlakçıya qədər olan təchizat zəncirini özündə əks etdirən klasterlərdir.

Klasterlər çox müxtəlif struktura malik ola bilərlər. Lakin əsas iştirakçılar qismində son məhsul istehsalçıları, ixtisaslaşmış xammal və ya yarımfabrikat, avadanlıq, ehtiyat hissəsi və digər məhsul təchizatçıları, maliyyə qurumları, müştərilər, ixtisaslaşmış infrastruktur xidməti təminatçıları, təhsil, araşdırma və texniki dəstək təmin edən qurumlar və standartlaşdırma agentlikləri çıxış edirlər.

Klasterə daxil olan sahibkarlıq subyektləri öz müstəqilliklərini itirmədən fəaliyyət göstərə, ümumi istifadə üçün infrastruktur layihələri (ortaq araşdırma mərkəzi, laboratoriya, anbar və s.) həyata keçirə bilərlər. Burada xammal tədarükündən, məhsulun bazara çıxarılması mərhələsinə qədər olan bütün iş prosesində ortaq hərəkət etmə imkanı əldə edilir ki, bu da daha ucuz xammal təminatı, məhsulların daha geniş kütlələrə təqdim olunması, beynəlxalq sərgilərdə iştirak edilməsi və ixrac imkanlarının genişlənməsi ilə

nəticələnir. Nəticədə isə məhsulların əlavə dəyərinin artmasına baxmayaraq, maya dəyəri nisbətən azalır.

Klasterlərin formalaşmasında əsasən aşağıdakı iştirakçılar yer alır:

- Kiçik və orta sahibkarlıq subyektləri;
- Xidmət tədarükçüləri (özəl və dövlət);
- Təhsil və araşdırma mərkəzləri;
- Sahibkarlıq qrupları (assosiasiyalar);
- Böyük sahibkarlıq subyektləri;
- Maliyyə qurumları və banklar;
- Qeyri-hökumət təşkilatları (QHT-lər);
- Dövlət.




**Şəkil 7.** Klaster iştirakçıları və onlar arasındakı əlaqələr (klaster xəritəsi)

Klasterdə kiçik müəssisələr digər müəssisələrin bilik və təcrübəsindən istifadə edir, eyni zamanda müəssisələr arasında təcrübəli mütəxəssislərin mübadiləsi işin səmərəliliyinə müsbət təsir göstərir.

Klasterlər, müəssisələr arasında məlumat mübadiləsinin və əməkdaşlıq şəbəkəsinin yaranmasında da mühüm rol oynayırlar. Bununla da müəssisənin təcrübələrinin nəticəsi kimi meydana

çıxmış ümumi bir bilik mənbəyi yaranır və bütün müəssisələr bu mənbədən faydalana bilirlər.

Bundan başqa, klaster daxilində bütün sahələrə deyil, müəyyən sahələrə yönəlmək imkanı mövcuddur ki, bu da müəssisələrin əməkdaşlığı nəticəsində meydana çıxmış əmək bölgüsünün təzahürüdür.

Klasterlərin başqa bir üstün cəhəti müəssisələrin inkişafı və rəqabət qabiliyyətlərinin artırılması, eləcə də qarşıda duran məsələlərin asanlıqla həlli imkanlarının mövcud olmasıdır. Ümumi ehtiyac, çətinliklər və çatışmazlıqların müəyyənləşdirilməsi, müəssisələrin dövlət və digər qurumlar tərəfindən dəstəklənməsi ilə bağlı daha məqsədyönlü addımların atılmasına və səmərəli qərarların qəbul edilməsinə şərait yaradır, bununla da müəssisənin inkişafına təkan verir.

Vacib məqamlardan biri də klasterlər çərçivəsində universitetlər və digər təhsil müəssisələri ilə sənaye müəssisələri arasında daha yaxın əlaqələrin qurulmasının əlverişli olmasıdır. Eyni sahədə və eyni coğrafi ərazidə toplanmış, bir-biri ilə əlaqədə olan rəqabətə açıq müəssisələr həmin sahənin inkişafına köməklik göstərəcək təhsil müəssisələrinin regionda qurulmasını asanlaşdırır.

Ölkə ərazisində klasterlərin yaradılması ilə əlaqədar olaraq dünyanın bəzi ölkələrinin bu sahədə təcrübələri araşdırılmışdır. Müəyyən olunmuşdur ki, klaster modeli, xüsusilə XX əsrin 60-70-ci illərindən başlayaraq tətbiq edilən bir mexanizmdir və bu modelin tətbiq edildiyi ölkələrin əksəriyyətində klasterlər iqtisadi cəhətdən çox əhəmiyyətli mövqeyə malikdir. Klasterlərin ən yaxşı inkişaf etdiyi ölkələrə nümunə kimi, İtaliya, Almaniya, İngiltərə, İsveç, Yaponiya, Fransa, ABŞ, Çin, Hindistan, Pakistan, Braziliya, Meksika və s. göstərilə bilər. Təyinatına görə klasterlər sənayenin bütün sahələrini əhatə edir və Sinqapur, Malayziya, Tayvan və digər ölkələrdə yüksək texnoloji məhsul istehsalına stimul verir.

Ənənəvi sənaye istehsalı ilə məşğul olan klasterlərə bəzi Avropa ölkələrini nümunə göstərmək olar. Belə ki, İtaliyanın müxtəlif sektorları əhatə edən və yüksək keyfiyyətli məhsulları ilə böyük

həcmli ixracı həyata keçirən tekstil, dəri, zərgərlik məmulatları, optik şüşələr və s. klasterləri bu sahədə böyük təcrübəyə malikdir. İtaliyanın “Made in Italy” olaraq dünyada məşhurlaşmasının əsas səbəblərindən biri bu ölkədə inkişaf etmiş klasterlərin mövcudluğudur. Həmçinin bir sıra kosmetika və tekstil məhsulları istehsalı ilə məşğul olan “Gucci”, “Armani”, “Genny”, “Byblos”, “Guigiaro Valentino”, “Yves Saint Laurent”, “Burberry”, “Dizel”, “Christian Dior” və s. brendlərin uğur qazanmasının və Asiya ölkələrinin irimiqyaslı istehsal gücü ilə rəqabət apara bilməsinin əsas səbəblərindən biri müvafiq sahələrdə klaster modelinin tətbiq olunmasıdır. Tanınmış italyan klasterlərinə nümunə kimi Prato (yun trikotaj), Trevisio (toxuma), Reggio Emilia (kənd təsərrüfatı maşınqayırması), Bologna (avtomat maşınlar) və digərləri göstərilə bilər.

İsveçdə ümumi ixracın 50%-dən çoxu (nəqliyyat, meşə məhsulları, metal və s.) sənaye klasterləri vasitəsilə həyata keçirilir. “Tuttlingen” (cərrahi avadanlıqlar), “Munich” (avtomobil) və “Frankfurt” (kimyəvi məmulatlar) Almaniyanın məşhur klasterlərindəndir. ABŞ-da isə, “Silikon vadisi” İKT üzrə, “Hollywood” əyləncə üzrə, Nyu-York maliyyə bazarları üzrə, Naorth Carolina mebel üzrə dünyada ən çox tanınmış klasterlərdən sayılır. Klasterlər inkişaf etməkdə olan bir çox ölkələrin iqtisadiyyatında da əhəmiyyətli yer tutur. Bu ölkələrə Braziliyanı (dəri və dəri ayaqqabılar), Meksikanı (maşınqayırma, ayaqqabı), Hindistanı (trikotaj, ənənəvi hazır geyim, daş-qaş və zərgərlik məmulatları, dəri və dəri məhsulları, əl işləri və s.) misal göstərmək olar.

Belə dövlətlər iqtisadi siyasət vasitələri və investisiyaların stimullaşdırılması yolu ilə klasterlərin inkişafını dəstəkləyərək, biznes mühitinin inkişafı istiqamətində müxtəlif tədbirlər həyata keçirirlər. Hazırda qlobal rəqabət şəraitində inkişaf səviyyəsindən asılı olmayaraq dünyanın bir çox ölkələrində kiçik və orta sahibkarlığın rəqabətə davamlılığının təmin olunması, o cümlədən, xammal əldə etmə, istehsal prosesində yenilik tətbiq etmə, marketinq, məh-

sulların bazara çıxarılması və s. mövzularda yaranan problemlərin klasterlərin tərkibində, eləcə də digər iqtisadi subyektlərlə aktiv əməkdaşlığın qurulması ilə aradan qaldırılması daha asandır.

Beynəlxalq təcrübəyə müraciət etsək, klasterlərin yaradılması istiqamətində dövlətlərin birbaşa iştirak etmədiyini müşahidə edərik. Klasterlər uzun dövr ərzində formalaşır və dövlətlərin hər hansı bir müdaxiləsi ilə klasterlərin yaradılması təcrübəsinə rast gəlinmir. Lakin, yaranmış və formalaşmış klasterlərin dövlətlər tərəfindən müxtəlif tədbirlərlə dəstəklənməsinə dünya təcrübəsində çox rast gəlmək olar. Klasterdə fəaliyyət göstərən sahibkarların güzəştli kreditlərlə təmin edilməsi ən başlıca dəstək mexanizmlərindən biridir.

Qeyd olunmalıdır ki, Azərbaycanda vertikal sənaye klasteri modelinə bənzər sahələr artıq mövcuddur. Polad istehsalı sahəsini, neft-kimya sənayesi sahəsini və digər sahələri buna misal göstərmək olar. Lakin məhsulların istehsalından başlayaraq son istehlakçıya qədər olan təchizat zəncirini özündə əks etdirməsinə baxmayaraq, klasterlərə məxsus olan bütün keyfiyyətləri əhatə etmədiyindən, göstərilən sahələrdə tam olaraq klasterlərin yaradıldığını demək çətindir.

Buna baxmayaraq, sahibkarlığın dəstəklənməsi məqsədilə qanunvericilik və dövlət proqramları, eləcə də mövcud institusional mexanizmlərdən istifadə etməklə Azərbaycanda klaster mexanizminin tətbiqinə başlamaq mümkündür. Xüsusilə klasterlərin seçilməsi, regional iqtisadiyyatda rəqabət gücü nisbətən yüksək olan və dövlət dəstəyi ilə qısa müddətdə maksimum nəticənin əldə edilə biləcəyi sahələrin müəyyənləşdirilməsi əhəmiyyətlidir. Bununla yanaşı, dəstəklənəcək klasterlərdə dövlət və özəl sektor əməkdaşlığı vacib əhəmiyyət daşıyır. Bunun üçün, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu, "Azərbaycan İnvestisiya Şirkəti" ASC, eləcə də ölkədə fəaliyyət göstərən iri şirkətlərin bu prosesdə aktiv iştirakı müsbət nəticə verə bilər.

Klasterlərin formalaşdırılması ölkədə sənaye sahəsində yeni iş

yerlərinin açılması, qeyri-neft sektorunda sənaye istehsalının genişləndirilməsi, sənaye ilə əlaqəli xidmətlərin inkişaf etdirilməsi, sənaye sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin dəstəklənməsi, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması və regionların sosial-iqtisadi inkişafı baxımından əhəmiyyətlidir.

Regionların daxili potensialı və təcrübələr də nəzərə alınaraq, hər bir regiona uyğun xüsusi klasterlərin qurulması, diversifikasiya yaradılması, yeni məhsul və xidmətlərin daxili və xarici bazarlarda ən yaxşı şəkildə təqdim edilməsi, bununla da qeyri neft sektorunda istehsalın və ixracın artırılması istiqamətində mühüm addımlar atılmalıdır.

Lakin buna baxmayaraq, fərdi şəkildə inkişafa meylin daha güclü olduğu Azərbaycan kimi ölkələrdə klasterlərin qurulmasının asan olmadığını da nəzərə almaq lazımdır. Belə ki, milli xüsusiyyətlər nəzərə alınmalı, sosioloji araşdırmalar aparıldıqdan sonra klasterləşmə prosesinə başlanılmalıdır. Kiçik və orta sahibkarların qısa zaman ərzində nəticə əldə etmə istəyi klasterləşməyə mane ola bilən amillərdəndir. Çünki bu proses uzunmüddətli strateji yanaşma tələb edir. Klasterləşmə prosesinin təşviq olunması üçün isə klaster agentləri müəyyən olunması və klaster sisteminin iştirakçılarının onun perspektivinə inandırılması vacib əhəmiyyət daşıyır.

Beləliklə, yuxarıda qeyd olunanları ümumiləşdirərək demək olar ki, yaxın illərdə ölkəmizdə yeni iqtisadi strukturların (texnopark, biznes inkubasiya mərkəzləri, sənaye parkları və məhəllələri, həmçinin sənaye klasterləri) dövlətimizin dəstəyi ilə qurulacaqdır. Ortaya bir sual da çıxır ki, bəs bu iqtisadi qurumların sahibkarlara hansı güzəşt və imkanları təklif edəcək ki, ölkədə həm sahibkarlıq fəaliyyəti daha sürətlə inkişaf etsin, həm də milli məhsul və xidmətlər bolluğu artısın. Bu sualın cavabını ətraflı növbəti bölmədə araşdırmışıq.

## 6. Texnoparkın sahibkara verdiyi imkanlar

Beləliklə məlum oldu ki, texnopark bir və ya bir neçə universitet, həmçinin elmi-tədqiqat mərkəzləri ilə birbaşa və ya ortaq fəaliyyətləri ilə əlaqədər olub, tərkibində elmi nəticələrə və yüksək texnologiyalara əsaslanan şirkətlərin qurulması və inkişafına təşəbbüs göstərmək üçün qurulmuş kompleksdir.

Bugünkü gündə sənaye parklarında və məhəllələrində vəziyyət tamamilə fərqli və sahibkarlar üçün xeyli imkanlar və güzəştlər təklif olunur.

Azərbaycanda qurulmuş və fəaliyyət göstərən sənaye parklarında sahibkarlara təklif olunan güzəştlər aşağıdakılardan ibarətdir:

1) 7 il müddətinə mənfəət vergisindən azad edilmə;
2) Əmlak və Torpaq vergisindən azad edilmə;
3) Əlavə Dəyər Vergisindən azad edilmə;
4) Biznes xidmətləri (məs., təlim, məsləhət və s.);
5) İstedadlara və elmi dairələrə çıxış.

Onu da qeyd edək ki, yuxarıda sadalanan 7 illik güzəştlər yalnız bizim ölkəyə aiddir. Belə ki, bəzi Avropa ölkələrində bu cür güzəştlər 3-5 il arasında, bəzilərində isə 5-10 il arasında dəyişir.

Sənaye parklarında verilən güzəştlərlə yanaşı bəzi imkanları da qeyd etmək lazımdır. Belə ki, parklarda sahibkarların fəaliyyəti üçün aşağıdakı imkanlar və şərait də ödənişsiz təklif olunur:

1) Yüksək sürətli İnternet, elektrik enerjisi, su və istilik daxil olmaqla bütün kommunal xidmətlər;
2) Yerli və qlobal ekspertlər tərəfindən biznes, liderlik, texniki və dil təlimlərini daxil edən Təhsil Proqramı;
3) Yerli və beynəlxalq biznes mentorları tərəfindən Mentorluq (məsləhət) Proqramı;
4) Avadanlıq idarəetməsi.

Bunlarla yanaşı sahibkarlara parkların ərazisində ofis (otaq) çox münasib qiymətə kirayə verilir ki, bu da bazar qiymətindən çox ucuz və sərfəlidir.

Yuxarıda qeyd olunanlar bizə əsas verir ki, gələcəkdə ölkə iqtisadiyyatında sahibkarlığın inkişafı daha da sürətlənəcək və daxili bazarın ehtiyacları ödənilərək, xarici bazara ixracın həcmi artacaqdır. Bunu keçən ilin statistik təhlilləri də əyani sübut kimi göstərilə bilər. Belə ki, ölkənin sahibkarlıq sektorunun inkişafı göstəricilərinin dinamikası həyata keçirilən iqtisadi islahatların uğurlu nəticələrinin əyani təsdiqidir. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkə iqtisadiyyatında və onun əsasını təşkil edən sahibkarlığın inkişafı sahəsində müşahidə edilən pozitiv meyllər özünü göstərməkdə davam edir. 2014-cü il ərzində 2013-cü illə müqayisədə ÜDM-in həcmi 2,8 faiz artaraq 59 milyard manata çatmışdır[23].

Ölkədə biznes mühitinin yaxşılaşdırılması, biznesə başlama prosedurlarının sadələşdirilməsi, sağlam rəqabətin təmin edilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, sahibkarların maariflələndirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi və digər tədbirlər nəticəsində Ümumi Daxili Məhsulun həcmində özəl sektorun payı 81,9 faiz təşkil etmişdir.

Aqrar sektor, sənaye, ticarət, mehmanxana və iaşə xidməti, tikinti, nəqliyyat, rabitə kimi istehsal və xidmət sahələrində qeyri-dövlət bölməsinin payı 70,0-99,8 faiz arasında dəyişir. Məşğulluğun 73,4 faizi özəl sektor tərəfindən təmin edilir. İqtisadiyyatın qeyri-neft sahələrində əlavə dəyər 7,0 faiz artmış, qeyri-neft sektorunun ümumi daxili məhsulda payı 61,0 faizə çatmışdır.

2014-cü ildə özəl bölmədə istehsalın həcmi sənaye məhsulunun 79,5 faizini təşkil etmiş, sənayenin ümumi istehsalının 92,4 faizi malların (əmtəələrin) istehsalı, 7,6 faizi isə xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Ölkədə sahibkarlıq subyektlərinin sayı 614423 vahid olmaqla, onların 37,2 faizi Bakı şəhərində, 62,8 faizi regionlarda qeydiyyatdan keçmişdir. Sahibkarların ümumi bölgüsünə görə onların 15,4 faizini hüquqi şəxslər, 84,6 faizini isə fiziki şəxslər təşkil edir.

[23]Mənbə: http://economy.gov.az/index.php?option=com_content&view= article&id=2834:2014-sid&catid=22:%C3%BCmumi-m%C9%99lumat&lang=az

2014-cü il ərzində müəssisə və təşkilatların sayı 9 faiz artaraq, 2015-ci ilin 1 yanvar tarixinə 94563 vahid olmuşdur. 2014-cü il ərzində 9130 yeni hüquqi şəxs qeydiyyata alınmışdır. Bu dövrdə qeydiyyatda olan müəssisə və təşkilatların 26,3 faizi "Ticarət; nəqliyyat vasitələrinin təmiri", 15,8 faizi "Digər sahələrdə xidmətlərin göstərilməsi", 10,8 faizi "Tikinti", 9,8 faizi "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", 6,3 faizi "Peşə, elmi və texniki fəaliyyət", 5,9 faizi "Emal sənayesi", 3,6 faizi "İnzibati və yardımçı xidmətlərin göstərilməsi", 3,2 faizi "Təhsil", 2,3 faizi "İnformasiya və rabitə" və qalanları isə digər bölmələrin payına düşür.

2014-cü ildə müəssisələr əsasən Bakıda (9,4 faiz), Quba-Xaçmaz (12,5 faiz), Abşeron (11,6 faiz), Dağlıq-Şirvan (16,8 faiz), Şəki-Zaqatala (11,9 faiz), Lənkəran (11,5 faiz), Aran (8,5 faiz) və Gəncə-Qazax (9,7 faiz) iqtisadi rayonlarında qeydiyyata alınmışdır.

2014-cü il ərzində qeydiyyata alınan yeni hüquqi şəxsin 1607-si dövlət mülkiyyətinə, 7-si bələdiyyə və 7516-sı xüsusi mülkiyyətə aid olmuşdur. Xüsusi mülkiyyətli müəssisələrin 533-ü tam xarici investisiyalı, 147-si isə birgə müəssisələrə aiddir.

2015-ci ilin 1 yanvar tarixinə qeydiyyata alınmış 94563 hüquqi şəxsin 10540-ı dövlət mülkiyyətinə, 82370-i xüsusi mülkiyyətə, (o cümlədən xüsusi mülkiyyətli müəssisələrin 5429-u tam xarici investisiyalı, 1754-ü isə birgə müəssisələrə aiddir), 1653-ü bələdiyyə mülkiyyətinə mənsub olmuşdur.

Statistik vahidlərin Dövlət reyestrində qeydiyyatdan keçmiş tam xarici investisiyalı və birgə müəssisələr əsasən Türkiyə (30,4 faiz), Böyük Britaniya (8,6 faiz), Rusiya (6,5 faiz), İran (5,1 faiz), ABŞ (3,7 faiz), Almaniya (1,9 faiz) və digər ölkələrin (43,7 faiz) sahibkarları tərəfindən yaradılmışdır.

Ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün 2014-cü ildə bütün maliyyə mənbələrindən əsas kapitala 17615,8 milyon manat vəsait yönəldilmiş, onun 75,4 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir. Əvvəlki illə müqayisədə tikinti-quraşdırma işlərinə sərf edilmiş vəsaitin həcmi 11,8 faiz artmışdır.

Ümumi sərmayənin 48,2 faizi dövlət, 51,8 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin həcmi ümumi sərmayənin 72,3 faizini təşkil etmiş, onun 63,4 faizi dövlət bölməsinin payına düşmüşdür.

2014-cü ildə xarici mənbələrdən əsas kapitala 4880,4 milyon manat investisiya yönəldilmişdir. Xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən əsas kapitala yönəldilmiş vəsaitin 4484,2 milyon manatı (91,9 faizi) Böyük Britaniya, Norveç, Türkiyə, ABŞ, Fransa, İran, Rusiya və Yaponiya sərmayədarlarına məxsus olmuşdur.

Bazar münasibətlərinin tələblərinə uyğun olaraq ölkə iqtisadiyyaatında kiçik sahibkarlığın inkişafı prosesi davam etmişdir. Ölkədə fəaliyyət göstərən kiçik müəssisələrin sayı və strukturu "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanunu[24] və "İqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarlarının hədlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı[25] ilə müəyyənləşdirilmiş işçilərin sayı və illik dövriyyə meyarına görə müəyyən edilir. 2015-ci il 1 yanvar tarixinə ölkədə fəaliyyət göstərən müəssisələrin 75119 vahidi kiçik müəssisələr olmuşdur .

2015-ci il yanvarın 1-i vəziyyətinə ölkə üzrə müəssisələrin ümumi sayının 79,4 faizini kiçik müəssisələr təşkil etmiş və onların əsas hissəsi ticarət (31,8 faiz), tikinti (12,7 faiz), digər sahələrdə xidmətlərin göstərilməsi (12,2 faiz) və kənd təsərrüfatı (11,8 faiz) bölmələrində yaradılmışdır.

Kiçik müəssisələrin 56,6 faizi Bakıda, 13,2 faizi Aran, 6,8 faizi Abşeron, 6,1 faizi Gəncə-Qazax, 5,8 faizi Lənkəran, qalanları isə digər iqtisadi rayonlarda yaradılmışdır.

Hesabat dövründə fiziki şəxslərin sayı dinamik şəkildə artmaqda davam etmişdir. 2015-ci ilin 1 yanvar tarixinə hüquqi şəxs yaratmadan fərdi sahibkarlıq formasında fəaliyyət göstərən fiziki

[24]http://anfes.gov.az/az/show.page.php?guid=703bc0ee-1f1c-11e0-abe4-2f80f755c2ce
[25]http://www.cabmin.gov.az/

şəxslərin sayı 12,5 faiz artaraq 519860 vahidə çatmışdır.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin əsas hissəsi Bakıda (34,3 faiz), o cümlədən Aran (19,7 faiz), Gəncə-Qazax (12,7 faiz) və Lənkəran (7,5 faiz) iqtisadi rayonlarında qeydiyyata alınmışdır.

Hesabat dövründə fərdi sahibkarların çox hissəsi "Ticarət; nəqliyyat vasitələrinin təmiri" (36,8 faiz), "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" (16,2 faiz), "Nəqliyyat və anbar təsərrüfatı" (13,5 faiz) və "Digər sahələrdə xidmətlərin göstərilməsi" (13,3 faiz) bölmələrində qeydiyyatdan keçmişdir.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin 81,0 faizini kişilər, 19,0 faizini isə qadınlar təşkil etmişdir. Sahibkar qadınların 39,4 faizi Bakıda, 16,3 faizi Aran, 15,0 faizi Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçmişlər.

2014-cü ildə pərakəndə əmtəə dövriyyəsinin həcmi 22,0 milyard manat olmaqla əvvəlki illə müqayisədə 10,0 faiz artmışdır.

İstehlak mallarının 99,8 faizi özəl təsərrüfat subyektlərində, o cümlədən 11,5 faizi hüquqi şəxs statuslu müəssisələrdə, 52,5 faizi fərdi sahibkarlara məxsus ticarət subyektlərində, 35,8 faizi əmtəə bazarlarında satılmışdır. Özəl bölmə üzrə pərakəndə əmtəə dövriyyəsinin həcmi 2013-cü ilin səviyyəsini 10,0 faiz üstələmiş, bu bölmə üzrə real artımın 65,7 faizi fərdi sahibkarların ticarət fəaliyyəti sayəsində yaranmışdır.

2014-cü ildə elektron ticarət şəbəkəsində istehlakçılara 6,4 milyon manatlıq və ya əvvəlki illə müqayisədə 2,4 dəfə çox istehlak malları satılmışdır. Elektron ticarət dövriyyəsinin 94,6 faizini təşkil edən qeyri-ərzaq mallarının satışı əvvəlki ilin səviyyəsini 2,5 dəfə üstələyərək 6,1 milyon manata bərabər olmuşdur. Elektron ticarəti üzrə istehlak mallarının satışının 91,3 faizi hüquqi şəxslərin, 8,7 faizi isə fərdi sahibkarların ticarət subyektləri tərəfindən həyata keçirilmişdir.

Dövlət Gömrük Komitəsindən[26] verilən məlumata əsasən,

[26]http://customs.gov.az/az/

2014-cü il ərzində Azərbaycan Respublikası 150 ölkə ilə ticarət sahəsində qarşılıqlı əməkdaşlıq etmişdir.

2014-cü il ərzində bir çox sahibkarlıq subyektləri, o cümlədən Bakı şəhərində "Norm" sement zavodu, Sumqayıt şəhərində "Azərsun Sənaye Parkı"nın nəzdində kağız və karton istehsalat kombinatı, Yağ fabriki, Mis emalı zavodu, Gəncə şəhərində "DET-AL Alüminium" MMC-nin Metaltökmə və fasiləsiz yayma, Təzyiqlə emal və boyama zavodları, Ağdaş rayonunda Gilan Yem və Ağdaş meyvə emalı zavodları, İsmayıllı, Lənkəran və Şəmkir rayonlarında çörək zavodları, Qəbələ rayonunda "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksinin birinci mərhələsi, "Qafqaz Yengicə Termal Hotel və SPA" otel kompleksi, Naftalan şəhərində "Qarabağ SPA and Resort" otel kompleksi, Lənkəran rayonunda Çörək istehsalı zavodu, Füzuli rayonunda Tikiş fabriki, Şamaxı rayonunda "Şamaxı Palace Platinum By Rixos" oteli kompleksi və s. obyektlər istifadəyə verilmişdir.

Yuxarıdakı statistik məlumatlara əsaslanaraq qeyd etmək istərdim ki, sahibkarlığın inkişafına dəstək nəticəsində ölkənin iqtisadi vəziyyəti günü-gündən daha da yaxşılaşmağa doğru artan xətt üzrə irəlliyir. Bunlarla yanaşı onu da qeyd etmək lazımdır ki, rəqabətədavamlı məhsul istehsalı və xidmətlərin göstərilməsi müasir dövrdə texnopark və ya sənaye parklarında daha əlverişli hesab olunur. Bu iqtisadi qurumlar yeni və say baxımdan az olsalar da sahibkarlar birləşərək ali təhsil müəssisələri ilə birlikdə müəyyən innovativ və elmtutumlu iqtisadiyyatın inkişafı prosesində iştirak edə bilərlər. Bu halda hər bir sahibkar subyekti öz məhsullarını daha sərfəli qiymətlərlə təkmilləşdirib bazara yeni ticarət markası ilə təklif edə bilər. Müasir dövrdə informasiya kommunikasiya texnologiyaların sürətlə inkişafı elektron ticarət və ya şirkətin təşkilinə də geniş imkanlar verir. O da məlumdur ki, texnoparklarda fəaliyyət göstərən şirkətlərin bir çoxu yeni informasiya texnologiyalarından istifadə etməklə öz bizneslərini inkişaf etdirirlər. Bununla da sahibkarlar daha az xərclə həm məhsul istehsal edib xidmətlər təklif edir, həm də daha çox gəlir əldə edib öz iqtisadi gücünü və rəqabətədavamlılığını artırmış olur.

## 7. Azərbaycanda texnoparkların inkişaf perespektivi və cari vəziyyəti

Kitabçanın digər bölmələrində texnoparkların günü-gündən aktuallaşması, sənaye parkların və məhəllələrin inkişaf perespektivləri və cari vəziyyəti aydın təsvir edilmişdir. Bu bizə əsas verir ki, Azərbaycanda texnoparkların inkişafı istiqamətində xeyli işlər görülür və maariflənmiş sahibkarlar öz bizneslərini bu cür məkanlarda inkişaf etdirib rəqabətədavamlı məhsul və xidmətlərlə öz müştərilərinə təklif edirlər.



Onu da qeyd etmək istərdim ki, müasir dövrdə ölkəmizdə aparılan islahatlar və quruculuq işləri hər bir sahibkara birbaşa və ya dolayı yollarla təsir edir. Bu proseslər içərisində iqtisadi amillər, xüsusilə müəssisə idarəetmə sisteminin təşkili və idarəedilməsi xüsusilə fərqlənir. Belə ki, yuxarıda ətraflı izahatı verilən iqtisadi qurumlar (texnoparklar, sənaye parkları, məhəllələri və klasterləri) və iqtisadiyyatımızın inkişaf dinamikası bizə əsas verir ki, hər bir sahibkar üçün ölkəmizdə kifayət qədər münbüt şərait var. Lakin or-

taya belə bir sual çıxa bilər ki, bəs nəyə görə bəzi sahələrdə sahibkarlıq inkişaf etmir və ya etdirilmir? Bu sualın cavabını apardığım araşdırmalar nəticəsində aşağıdakı kimi qeyd etmək istərdim.

1) Qeydiyyatdan keçmiş fiziki və ya hüquqi şəxslər çox qısa zaman ərzində daha çox gəlir əldə etmək düşüncəsi hesabına bazara öz məhsul və xidmətlərini təklif etdikdə və məhsul lazımi istehlakçıya çatmadıqda və ya az çatdıqda bəzi sahibkarlarda özünəqapanma və işdənsoyuma hallarının baş verməsi ortaya çıxır ki, bu da sahibkarlığın davamlı inkişafına mane olan əsas faktorlardan hesab olunur;
2) Başqa bir səbəb kimi onu əlavə etmək istərdim ki, sahibkar bankdan götürüdüyü krediti hazırladığı biznes plan və ya maliyyənin xərclənməsi təyinatı üzrə düzgün istifadə etmədikdə və bunun nəticəsində ortaya maliyyə çatışmamazlığı və ya böhranı çıxdıqda sahibkarda fəaliyyəti dayandırmaq və ya qurduğu işi kiməsə təklif etmək hallarına rast gəlinir.

Qeyd olunan səbəblərin sayını davam etdirmək olar, lakin qısaca olaraq fikrimi ümumiləşdirmək istəyirəm ki, sahibkar istər ənənəvi yollarla, istərsə də yeni iqtisadi qurumlarda fəaliyyətini daha peşəkarcasına qurmalı və fəaliyyətini davamlı olaraq inkişaf etdirməlidir. Bunun üçün sahibkarlar ali təhsil müəssisələri, elmi-tədqiqat mərkəzləri və ya peşəkar iqtisadi məsləhət xidmətləri göstərən qurumlarla əməkdaşlıq etməlidirlər ki, həm rəqabətədavamlı fəaliyyət göstərə bilsinlər, həm də innovasiyalar hesabına səmərəli məhsul və xidmətlər təklif edə bilsinlər.

Hər kəsə məlum olur ki, yeni iqtisadi qurumların səmərəli fəaliyyəti üçün qanunvericilik bazası da daim diqqət mərkəzində saxlanmalı və təkmilləşdirilməlidir. Bəzən yeni tənzimləyici qanunların qəbul olunmasına da ehtiyac duyulur.

## 8. Texnoparkda fəaliyyət göstərmək üçün sahibkar nə etməlidir?

Sahibkarlar öz biznes istiqamətinə uyğun olaraq fəaliyyətlərini texnoparklarda və ya sənaye parklarında davam etdirmək istəyirlərsə müəyyən müraciət qaydalarına əməl etməlidirlər. Nümunə olaraq kimiya sənayesi sahəsində fəaliyyət göstərmək istəyən sahibkar (rezident) aşağıdakı müraciət qaydalarına əməl etməlidirlər:

Sumqayıt Kimya Sənaye Parkında sahibkarın (rezidentin və ya investorun) qeydiyyat proseduru operator və müraciət edən hüquqi və ya fiziki şəxs arasında Niyyət Razılaşmasının imzalanması ilə başlanılır.

Növbəti mərhələdə "Sumqayıt Kimya Sənaye Parkı" MMC-yə qeydiyyat üçün müraciət ərizəsi və ərizəyə əlavə olunan sənədlər təqdim edilir[27].

Hüquqi və fiziki şəxslərin sənaye parkının rezidenti kimi qeydiyyata alınması üçün ərizədə:

- Ərizəçi haqqında məlumatlar;
- Sənaye parkında nəzərdə tutulan ərazinin göstəriciləri;
- İstehsalat tələbatı;
- Tullantıların ətraf mühitə təsiri;
- İnvestisiya layihəsi üzrə məlumatlar qeyd olunur.

Sənaye Parkında fəaliyyət göstərmək istəyən şəxs ərizəyə aşağıdakı sənədləri əlavə edir:

- Hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti (ərizəçi hüquqi şəxs olduqda);
- Hüquqi şəxsin səlahiyyətli nümayəndəsinin (təmsilçisinin) şəxsiyyətini təsdiq edən sənədin surəti (ərizəçi hüquqi şəxs olduqda);



[27]http://www.scip.az/index.php?lang=az#

- Fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin və vergi uçotuna alınması haqqında şəhadətnamənin surəti (ərizəçi fiziki şəxs olduqda);
- Hüquqi şəxsin nizamnaməsinin surəti (ərizəçi hüquqi şəxs olduqda);
- İnvestisiya layihəsi (biznes plan);
- Hüquqi və fiziki şəxsin sənaye parkında məşğul olmaq istədiyi sahibkarlıq fəaliyyəti üçün xüsusi razılığın (lisenziyanın) və icazə xarakterli digər sənədlərin surətləri (əgər ərizədə göstərilibsə).

Hüquqi və fiziki şəxslərin sənaye parkının rezidenti kimi qeydiyyata alınması üçün Müraciət formasını aşağıdakı linkdən də əldə etmək olar:

http://www.scip.az/index.php?option=com_content&view=article&id=60&Itemid=206&lang=az

## 9. Faydalı linklər

Texnoparklar barəsində ölkəmizdə çox məlumat olmasa da müəyyən qədər əldə etdiyimiz faydalı linkləri Sizlərlə bölüşürəm:

1. Qafqaz Universitetinin nəzdində fəaliyyət göstərən texnopark - http://qutechnopark.az/az/
2. Xəzər Universitetin nəzdində fəaliyyət göstərən texnopark - http://www.khazar.org/
3. Sumqayıt Kimya Sənaye Parkı - www.scip.az
4. Balaxanı Sənaye Parkı - www.bsp.az
5. Yüksək Texnologiyalar Parkı - www.hightech.az
6. Mingəçevir Yüksək Texnologiyalar Parkı - www.hightech.az
7. Mingəçevir Sənaye Parkı - office@scip.az

## 10. Əlavələr (ərizə formaları, sənədlər və s.)

Sənaye parklarında rezidentlər üçün tələb olunan bəzi sənəd nümunələrini əldə etmək üçün internet linklərini və kitabçadan faydalanlar üçün bəzi sənəd nümunələrini təqdim edirəm:

a) http://bsp.az/muraciet.php

b) https://docs.google.com/forms/d/176CQIbVl82JPB24gqlJ07KLIMOZtM2NRcCdcYUgtZnw/viewform

c) http://www.scip.az/index.php?option=com_content&view=article&id=60&Itemid=206&lang=az

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin kollegiyasının 2013-cü il 15 may tarixli, 08 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**Hüquqi və fiziki şəxslərin sənaye parkının rezidenti kimi qeydiyyatdan keçmək üçün təqdim etdikləri ərizənin forması və ona əlavə edilən sənədlərin siyahısı**

____________________________________________
(sənaye parkının idarəedici təşkilatının adı)

**Hüquqi və fiziki şəxslərin sənaye parkının rezidenti kimi qeydiyyata alınması üçün**
**ƏRİZƏ**

**1. Ərizəçi haqqında məlumatlar:**

1.1. Hüquqi şəxsin tam adı / fiziki şəxsin soyadı, adı, atasının adı ______________________________

1.2. Hüquqi (fiziki) şəxsin hüquqi (fəaliyyət) ünvanı ______________________________

1.3. VÖEN və dövlət qeydiyyatına alındığı tarix ______________________________

1.4. Əlaqə telefonu ______________________________

1.5. İnternet ünvanı (vebsaytı) (əgər varsa) ______________________________

1.6. Elektron poçtu (əgər varsa) ______________________________

1.7. Hüquqi şəxsin səlahiyyətli nümayəndəsinin (təmsilçisinin):
1.7.1. soyadı, adı, atasının adı ______________________________
1.7.2. ünvanı ______________________________
1.7.3. əlaqə telefonu ______________________________
1.7.4. elektron poçtu (əgər varsa) ______________________________
1.7.5. şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi, verilmə tarixi və sənədi verən orqanın adı ______________________________

1

1.8. Fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi, verilmə tarixi və sənədi verən orqanın adı ____________________

1.9. Hüquqi və fiziki şəxsin mövcud fəaliyyət növü ____________________
(istehsal edilən məhsullar, göstərilən xidmətlər və s.)
____________________

1.10. Hüquqi və fiziki şəxsin sənaye parkında məşğul olmaq istədiyi sahibkarlıq fəaliyyəti növü üçün xüsusi razılığın (lisenziyanın) və icazə xarakterli digər sənədlərin (əgər varsa):
1.10.1. adı və fəaliyyət növü ____________________
1.10.2. verilmə tarixi və nömrəsi ____________________
1.10.3. müddəti (başlama və başa çatma tarixləri göstərilməklə) ____________________

1.11. Hüquqi şəxsin hər bir təsisçisinin (iştirakçısının):
1.11.1. tam adı (hüquqi şəxsdirsə) ____________________
1.11.2. soyadı, adı, atasının adı (fiziki şəxsdirsə) ____________________
1.11.3. hüquqi ünvanı / yaşayış yeri ____________________
1.11.4. qeydiyyatı haqqında məlumat ____________________

**2. Sənaye parkında nəzərdə tutulan ərazinin göstəriciləri:**

2.1. Ümumi sahə ($m^2$) ____________________ 2.2. Bina ($m^2$) ____________________
2.3. Əsas istehsalat sahəsi ($m^2$) ____________________ 2.4 Ofis ($m^2$) ____________________
2.5. Anbar ($m^2$) və ($m^3$) ____________________ 2.6. Yardımçı sahə ($m^2$) ____________________
2.7. Laboratoriya ($m^2$) ____________________ 2.8. Digər ____________________

**3. Sənaye parkında nəzərdə tutulan istehsalat tələbatı:**

3.1. Təbii qaz ($m^3$/il) ____________________ 3.2. İçməli su ($m^3$/il) ____________________
3.3. Texniki su ($m^3$/il) ____________________ 3.4. Tullantı suyu ($m^3$/il) ____________________
3.5. Elektrik enerjisi (kVt/s il) ____________________ 3.6. Kanalizasiya ($m^3$/il) ____________________
3.7. Elektrik enerjisinə tələb olunan maksimal güc (kVt) ____________________
3.8. Digər ____________________

**4. Sənaye parkında nəzərdə tutulan tullantıların ətraf mühitə təsiri:**

4.1. CO (ton/il) ____________________ 4.2. $CO_2$ (ton/il) ____________________
4.3. NOx (ton/il) ____________________ 4.4. $SO_2$ (ton/il) ____________________
4.5. SO (ton/il) ____________________ 4.6. Digər ____________________

**5. Sənaye parkında nəzərdə tutulan fiziki çirklənmə:**

5.1. Vibrasiya (Hz/il)____________________ 5.2. Səs-küy (dB/il)____________________

5.3. Elektromaqnit şüalar (Tl/il)______________ 5.4. Radiasiya (mcR/il)______________________
5.5. Sənaye tullantıları (ton/il) _______________ 5.6. Digər __________________________________

**6. İnvestisiya layihəsi üzrə məlumatlar:**

6.1. İnvestisiya layihəsinin adı ________________________________________________________
____________________________________________________________________________________
6.2. İstehsal olunacaq məhsul, görüləcək iş və xidmətlər _________________________________
____________________________________________________________________________________
6.3. İnvestisiyanın mənbəyi ____________________________________________________________
6.4. İnvestisiyanın həcmi ______________________________________________________________
6.5. Layihənin nəzərdə tutulan başlanma tarixi _______________________________________
6.6. Layihənin müddəti ________________________________________________________________
6.7. Yaradılacaq yeni iş yerlərinin növü və sayı ______________________________________
6.8. Layihənin qısa təsviri ____________________________________________________________
____________________________________________________________________________________
____________________________________________________________________________________
____________________________________________________________________________________
____________________________________________________________________________________

Xahiş edirəm ________________________________________________________________________
(hüquqi şəxsin tam adı / fiziki şəxsin soyadı, adı, atasının adı)
___________________________________________________ rezidenti kimi qeydiyyata alasınız.
(sənaye parkının adı)

**Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:**

| Sıra №-si | Sənədlərin adı | Nüsxələrin sayı | Vərəqlərin sayı | Qeyd |
|---|---|---|---|---|
| 1. | Hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti (ərizəçi hüquqi şəxs olduqda) | | | |
| 2. | Hüquqi şəxsin səlahiyyətli nümayəndəsinin (təmsilçisinin) şəxsiyyətini təsdiq edən sənədin surəti (ərizəçi hüquqi şəxs olduqda) | | | |
| 3. | Fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin və vergi uçotuna alınması haqqında şəhadətnamənin surəti (ərizəçi fiziki şəxs olduqda) | | | |
| 4. | Hüquqi şəxsin nizamnaməsinin surəti (ərizəçi hüquqi şəxs olduqda) | | | |
| 5. | İnvestisiya layihəsi (biznes plan) | | | |

| | | | | |
|---|---|---|---|---|
| 6. | Hüquqi və fiziki şəxsin sənaye parkında məşğul olmaq istədiyi sahibkarlıq fəaliyyəti üçün xüsusi razılığın (lisenziyanın) və icazə xarakterli digər sənədlərin surətləri (əgər ərizədə göstərilibsə) | | | |

Ərizənin doldurulduğu tarix ________________________________
(gün, ay, il)

Hüquqi şəxsin səlahiyyətli nümayəndəsinin (təmsilçisinin) / fiziki şəxsin imzası ________________
(imza)

M.Y.

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin kollegiyasının 2013-cü il 15 may tarixli, 08 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Forma

Üz tərəfi

______________________________
(sənaye parkının idarəedici təşkilatının adı)

______________________________
(sənaye parkının adı)

**QEYDİYYAT ŞƏHADƏTNAMƏSİ**

**QEYDİYYAT №-si ____________________**

Arxa tərəfi

________________________________________
(hüquqi şəxsin tam adı / fiziki şəxsin soyadı, adı, atasının adı)

Qeydiyyata alındığı tarix: ________________

Əsas: ______________________________ __________ tarixli
(sənaye parkının idarəedici təşkilatının adı)
____ nömrəli qərarı.

________________ __________ ______________________
(məsul şəxsin vəzifəsi) (imzası) (adı, soyadı)
M.Y.

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin kollegiyasının 2013-cü il 17 aprel tarixli, 05 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Forma

**Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi**

**Sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru tərəfindən texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına dair**

**TƏSDİQEDİCİ SƏNƏD**

№ _____ Bakı şəhəri, ____ ___________ 20_____ il

Bu təsdiqedici sənəd verilir Azərbaycan Respublikası Prezidentinin ___ ____________ 20_____ il tarixli, ____ nömrəli Fərmanına / Sərəncamına əsasən yaradılmış __________________________________________ idarəedici təşkilatı / operatoru olan

(sənaye, yaxud texnologiyalar parklarının adı)

______________________________________________________________________

(idarəedici təşkilatın / operatorun adı, hüquqi ünvanı və VÖEN-i)

və təsdiq edir ki, aşağıdakı siyahıda göstərilmiş texnika, texnoloji avadanlıqlar və qurğular həmin idarəedici təşkilat / operator tərəfindən __________________________

(sənaye, yaxud texnologiyalar parklarının

______________________________________________________________________

infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi, habelə elmi tədqiqat və təcrübə-konstruktor

_____________________________ məqsədilə Azərbaycan Respublikasına idxal edilir.

işlərinin görülməsi məqsədləri göstərilir)

1

| XİF MN-in kodu | Malların adları | Miqdarı | Ölçü vahidi | Müqavilənin rekvizitləri (tərəflərin adları və müqavilənin bağlanması tarixi) |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

Bu təsdiqedici sənəd müvafiq gömrük orqanına təqdim edilmək üçün verilir.

____________________ _____________ ________________________________________

(məsul şəxsin vəzifəsi) (imzası) (adı, soyadı)

M.Y.

2

**Texnoparklar:
kiçik sahibkarlar üçün bələdçi**

Müəlliflə əlaqə:

E-mail: ari_coordinator@yahoo.com

Kompüter dizaynı: Ariz Allahverdiyev

Format 84x102, 1/32, 1,5 ç.v. Tiraj 300 ədəd.
Kitab "AZSEA" MMC -də çap edilib.
Kitab pulsuz paylanır.